


# MƏN HEYDƏR ƏLİYEV MƏKTƏBİNDƏ NECƏ DƏRS ALDIM



XXIII YAZI

**Jurnalist Aslan Aslanov 45 ildən çox Azərbaycanın müxtəlif mətbuat orqanlarında çalışıb. Ömrünün 30 ili Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə bağlı olub. Əvvəlcə agentlikdə müxbir, baş redaktor, 1997-2002-ci illərdə baş direktorun birinci müavini, 2002-2022-ci illərdə baş direktor, İdarə Heyətinin sədri işləyib. Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da xalqın təkidli tələbilə Bakıya gələrək iyunun 11-də AMEA-nın Rəyasət Heyətinin binasında xarici ölkələrin səfirləri ilə ilk görüşündən başlayaraq, 2003-cü ilədək keçirdiyi görüşlərin, qəbulların, iclasların və digər tədbirlərin, eləcə də xarici ölkələrə səfərlərinin tam əksəriyyətində AZƏRTAC-ın əməkdaşı kimi iştirak edib. 1995-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.**

**Hazırda təqaüddə olan Aslan Aslanovun Ulu Öndərin 100 illiyi münasibətilə yazdığı "Mən Heydər Əliyev məktəbində necə dərs aldım" sərlövhəli xatirələrini oxuculara təqdim edirik.**

⇨ Əvvəli ötən saylarda

Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan ölkələrin Qızıl Aypara cəmiyyətləri başçılarının birinci Bakı görüşünün iştirakçılarını qəbul etdi. Ulu Öndər bu əməkdaşlığı daha səmərəli etmək üçün onların Bakıda görüşmək arzusunu alqışladı və Azərbaycana göstərilən yardıma görə beynəlxalq humanitar təşkilatlara və xarici ölkələrə minnətdarlığını bildirdi.

Səmimi qəbula görə dövlətimizin başçısına minnətdarlıq edən qonaqlar qaçqınların düşərgələrində olduqları barədə məlumat verdilər, onların iztirablarını azacıq da olsa yüngülləşdirmək üçün müəyyən tədbirlər görməyə söz verdilər. Dedilər ki, respublikanın ağır vəziyyətə düşdüyünü görür və yaxşı başa düşürlər. Bu, ölkələrimiz və təşkilatlarımız arasında əməkdaşlıq münasibətlərini, qarşılıqlı anlaşmanı möhkəmləndirməyin labüd olduğunu göstərir. Qonaqlar ümidvar olduqlarını bildirdilər ki, Bakı görüşündə qaldırılan məsələlər müvəffəqiyyətlə öz həllini tapacaqdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev may ayında bir sıra qəbullar, görüşlər və digər tədbirlər keçirdi. Amma mən iyunun 7-də Bakıda tanışlıq səfərində olan Fransanın "Spi-batinyol" sənaye şirkətinin prezidenti ilə görüşə bir qədər geniş yer ayırmaq istəyirəm. Ona görə ki, dövlətimizin başçısı Parisdə rəsmi səfərdə olarkən Fransanın iş adamları ilə görüşmüş və onları Azərbaycanla əməkdaşlığa dəvət etmişdi. Bu səbəbdən "Spi-batinyol" kimi böyük bir şirkətin bu dəvəti qəbul edərək Azərbaycana gəlməsini həqiqətən müsbət qiymətləndirmək olar.

Azərbaycan dövlətinin başçısına Fransa şirkətinin işinin xüsusiyyətləri barədə qısa məlumat verildi. Bildirildi ki, 33 min işçisi olan "Spi-batinyol" şirkətinin illik dövriyyəsi beş milyard dollardır. Bu, onu Fransada mülki tikinti, neft kəmərlərinin çəkilməsi, elektrik avadanlığı, sürət qatarları istehsalı, aeroport və bənd tikintisi sahəsində ixtisaslaşan ən böyük şirkətlərdən biri kimi səciyyələndirir.

Şirkətin rəhbəri əmin olduğunu bildirdi ki, ölkələrimiz arasındakı əməkdaşlıq Azərbaycanın Fransada daha yaxşı tanınmasının təminatı olacaqdır. Buna görə də Fransa-Azərbaycan Sənaye Ticarət Palatasının və Fransa Sahibkarlarının Milli Mərkəzi çərçivəsində Azərbaycana dəstək qrupunun yaradılması barədə planların həyata keçirilməsində cənab Prezidentin köməyinə bel bağlamaq istəyirlər. Qonağın fikrincə, bu, sahibkarların səylərini birləşdirməyə kömək edəcək və ölkələrimiz arasında əməkdaşlığa yeni təkan verəcəkdir.

Prezident Heydər Əliyev fransız biznesmeninin təkliflərini diqqətlə dinlədi, bunların həyata keçirilməsinə kömək göstəriləcəyini vurğuladı.

İyunun əvvəlində digər mühüm bir görüş isə Rusiyanın müdafiə naziri Pavel Qraçov ilə oldu. İyunun 11-də baş tutan bu görüş əvvəlcə təkbətək başladı və bir saatdan sonra geniş tərkibdə davam etdirildi. Danışıqlardan əvvəl belə güman edilirdi ki, qonşu ölkənin hərbi idarəsinin başçısı Bakıya əsasən Ermənistan-Azərbaycan münaqişəsi zonasında sülh yaratmaq əməliyyatında Rusiyanın iştirakının mümkünlüyü məsələsini müzakirə etmək üçün gəlib. Pavel Qraçov bunu inkar etməyərək jurnalistlərə dedi ki, onun əsas vəzifələrindən biri atəşin dayandırılması və qoşunların aralandırılması haqqında mayın 17-də Ermənistanın və Rusiyanın imzaladıqları protokolu Azərbaycan tərəfinin imzalamağa razılıq verməsinin zəruriliyinə Prezident Heydər Əliyevi inandırmağa səy göstərməkdir.

Prezident Heydər Əliyev bu görüşün mühüm əhəmiyyət daşıdığını qeyd edərək, iki qonşu dövlət arasındakı münasibətlərin dostluq xarakterini xüsusi vurğuladı. Dedi ki, son vaxtlar bu münasibətləri müvəffəqiyyətlə inkişaf etdirmək və möhkəmləndirmək üçün az iş görülməyib. Bununla yanaşı, əməkdaşlığı genişləndirmək üçün daha sıx, o cümlədən hərbi sahədə əlaqələr yaratmaq lazımdır. Bunu həm Rusiyanın, həm də Azərbaycanın təhlükəsizliyinin möhkəmləndirilməsi tələb edir.

Rusiyanın müdafiə naziri də iki ölkə arasında çoxtərəfli əməkdaşlığın qaydaya salınmasına, onun daha yüksək səviyyəyə qaldırılmasına tərəfdar çıxaraq dedi ki, bu məsələdə Azərbaycan Rusiya tərəfindən tam anlayışla qarşılanır. Rusiya nazirinin dediyinə görə, onun Azərbaycana səfəri tanışlıq xarakteri daşıyır və eyni zamanda, işgüzar səfərdir.

Rusiyanın müdafiə naziri uğurlu adlandırdığı danışıqların yekunlarını şərh edərkən jurnalistlərə bildirdi ki, görüşdə əsas diqqət sırf hərbi xarakterli iki məsələyə yönəldilmişdir. Bunlardan birincisi Qəbələdə yerləşən və əvvəllər keçmiş SSRİ silahlı qüvvələrinə məxsus olan raket hücumundan xəbərdarlıq stansiyasının gələcəyinə aiddir. Pavel Qraçovun dediyinə görə, bu məsələdə Azərbaycan Prezidenti Heydər Əliyev də belə bir fikirdədir ki, Qəbələ radiolokasiya stansiyasının təkcə Rusiya və Azərbaycan üçün deyil, həm də MDB-nin digər ölkələri, bütün dünya dövlətləri üçün strateji əhəmiyyəti var. Obyektin istismarı barədə saziş imzalamaq üçün ekspertlərə tapşırıq verildi ki, bu məsələni tezliklə işləsinlər. Rusiya Hava Hücumundan Müdafiə Qoşunlarının komandanı Viktor Prudnikov vəziyyəti yerində öyrənmək üçün ekspertlər qrupu ilə birlikdə Qəbələdə olub.

Bundan əlavə, Rusiyanın nümayəndə heyəti Cənubi Qafqazda hava hücumundan vahid müdafiə sistemi yaradılması haqqında təklifi Azərbaycan tərəfinin müzakirəsinə verdi. Həmin təklif Ermənistanda və Gürcüstanda aparılan danışıqlar zamanı müzakirə edilmiş və həmin dövlətlər tərəfindən qəbul olunmuşdu. Rusiya müdafiə nazirinin dediyinə görə, Heydər Əliyev bu ideyanı müsbət qarşılamış, Azərbaycanın müdafiə nazirinə həmin məsələni öyrənməyi tapşırmışdır.

Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması məsələsinə toxunarkən Pavel Qraçov dedi ki, Prezident Heydər Əliyevlə təkbətək söhbətində o, yeni çox şey əxz etdi və Moskvaya qayıdanda bu barədə Prezident Boris Yeltsinə ətraflı məlumat verəcək. Qraçovun dediyinə görə, o, Azərbaycan Prezidenti ilə söhbətdən özü üçün iki mühüm nəticə çıxardı. Birincisi, Azərbaycandakı daxili siyasi vəziyyətin münaqişəyə təsiri ilə bağlıdır. İkincisi isə ondan ibarətdir ki, problemin həllinə dair Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında hərtərəfli siyasi müqavilə imzalanmayınca atəşin və hərbi əməliyyatların dayandırılması haqqında hər hansı məhdud sazişin səmərəsi olmayacaq. Hazırda Xarici İşlər Nazirliyinin və başqa idarələrin xətti ilə məhz belə bir hərtərəfli sənəd üzərində iş gedir.

Pavel Qraçov qeyd etdi ki, Azərbaycan və Ermənistan atəşin dayandırılması haqqında sazişə ümumən əməl edirlər, lakin onda olan məlumata görə, tərəflərin hər biri qüvvə toplayır, bu da hərbi əməliyyatların yenidən başlanmasına gətirib çıxara bilər. Eyni zamanda, nazir dedi ki, Rusiya da münaqişə zonasında vəziyyətə nəzarət etməyə çalışacaq.

İyunun 11-də Prezident Heydər Əliyev haqq işimizin gələcək uğurlarına xidmət edən əməkdaşlığın daha da inkişafı naminə qardaş Türkiyəyə yenidən səfər etmək və orada bir sıra görüşlər keçirmək, danışıqlar aparmaq məqsədilə İstanbula yola düşdü. Bu səfər Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə həyata keçirilirdi.

Prezident Heydər Əliyev yola düşməzdən əvvəl Bakının Binə hava limanında İstanbula səfərinin məqsədi barədə jurnalistlərin suallarına cavabında bildirdi ki, Türkiyə ilə Azərbaycan bir-birinə çox yaxın dost ölkələrdir. Azərbaycanın Türkiyə ilə dostluq və əməkdaşlıq haqqında müqaviləsi var və biz bu ölkə ilə müntəzəm əlaqə saxlayırıq. 1994-cü ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olarkən bir çox mühüm müqavilələr, sazişlər imzalamışıq. Onların həyata keçirilməsi ilə hər iki tərəf məşğul olur. Bu yaxınlarda mən Belçikaya səfərdən Bakıya dönərkən də bir neçə saat Ankarada oldum. Türkiyənin rəhbərləri ilə görüşdüm, söhbətlər etdik, məsləhətləşmələr apardıq. Dostluq və qardaşlıq əlaqələrinin dinamik inkişaf etdiyi indiki şəraitdə bizim vaxtaşırı görüşməyə, danışıqlar və məsləhətləşmələr aparmağa ehtiyacımız var. Ona görə də dostum, qardaşım Süleyman Dəmirəl məni Türkiyəyə dəvət etdi ki, əməkdaşlığımızın davam etməsi ilə əlaqədar bir sıra məsələləri müzakirə edək. Mən də bu dəvəti məmnuniyyətlə qəbul etmişəm.

"İstanbulda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında dəniz neft yataqlarının birgə işlənməsinə dair müqavilə bağlanması barədə danışıqlar olacaqmı? İstanbulda Şimali Atlantika Əməkdaşlıq Şurasının iclası da keçiriləcəkdir. Səfərinizin bu iki mühüm hadisə ilə əlaqəsi varmı?" suallarına cavabında Prezident Heydər Əliyev dedi ki, səfəri həmin hadisələrlə əlaqədar deyil. Bu, sadəcə olaraq təsadüfdür: "Əgər Türkiyə Prezidenti Süleyman Dəmirəl bu gün Ankarada olsa idi, mən Ankaraya gedəcəkdim. Ancaq o, indi İstanbuldadır, ona görə də məni İstanbula dəvət edib. Qərb ölkələrinin neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında danışıqlar üç gündür ki, yenidən başlayıb. Bu danışıqlar lazımi səviyyədə davam edir. Hazırda bu işlərə mənim müdaxilə etməyimə ehtiyac yoxdur. Çünki Respublika Dövlət Neft Şirkətinin nümayəndə heyəti İstanbula yola düşərkən mən onları qəbul etdim, ətraflı söhbət apardım. Bu barədə Azərbaycanın prinsipial mövqeyi müəyyənləşib və nümayəndələrimiz danışıqları onun əsasında aparırlar".

Rusiya müdafiə nazirinin Bakıya səfərinin məqsədi barədə suala isə cənab Prezidentin cavabı belə oldu: Pavel Qraçovun Bakıya səfəri Qəbələdəki böyük əhəmiyyət kəsb edən hava hücumundan müdafiə qurğusu ilə əlaqədardır. Bu barədə bizim müəyyən danışıqlarımız olub. Mən Rusiya Prezidenti Boris Yeltsinlə telefonla danışıq aparmışam. Həmin o obyekt vaxtilə Sovet İttifaqının strateji raketlərdən müdafiə olunması üçün qurulmuşdur. Bunun indi Rusiya üçün böyük əhəmiyyəti var. Həmin qurğu hazırda istismar olunur, ancaq onun Azərbaycandakı statusu müəyyən deyil. Bir halda ki, həmin qurğu Azərbaycanın ərazisində yerləşir, deməli, Azərbaycana məxsusdur. Sovet İttifaqı iki il yarımdır dağılıb. Təəssüf ki, bu müddətdə məsələ həll olunmayıb. Yeni iki il yarımdır ki, qurğudan Rusiya yenə də istifadə edir. Ancaq Azərbaycanın hüquqları müəyyən deyil. Ona görə də mən Rusiya Prezidenti Boris Yeltsinin, müdafiə naziri Pavel Qraçovun qarşısında bu məsələni qaldırmışam. Pavel Qraçov da həmin məsələni müzakirə etmək üçün Bakıya gəlib.

*/Ardı var/*